UOT (479.24)

# Gizli (qeyri-rəsmi) sektorun iqtisadiyyatdakı rolu haqqında: bir ədəbiyyat araşdırması



**Bağırzadə Elşən Rəsul oğlu***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi:* gizli sektorun iqtisadiyyatdakı rolu haqqında mövcud ədəbiyyatdakı fikirlərin araşdırılması və zəruri ümumiləşdirmələrin aparılmasıdır.

*Tədqiqatın metodologiyası:* analiz, sintez, deduksiya, induksiya, sistemli yanaşma və qruplaşdırma metodları.

*Tədqiqatın nəticələri:* araşdırma nəticələrinə görə ədəbiyyatda gizli sektorun ölkə iqtisadiyyatındakı rolu ilə bağlı neqativ və pozitiv olmaqla, iki əsas yanaşma tərzinin mövcudluğu ortaya çıxmışdır. Eyni zamanda, da araşdırma nəticələri göstərmişdir ki, uzun müddətli perspektivdə gizli sektorun iqtisadiyyatdakı rolu ilə bağlı neqativ yanaşmanın daha tutarlı olduğu yönündə artıq ədəbiyyatda müəyyən fikir birliyi formalaşmışdır.

*Tədqiqatın məhdudiyyətləri:* Azərbaycan iqtisadiyyatı üçün bu sahədəki tədqiqatların məhdudluğu ilə bağlıdır.

*Tədqiqatın praktiki əhəmiyyəti:* gizli sektorun iqtisadiyyatdakı roluna dair ədəbiyyatdakı müxtəlif yanaşmaların iqtisadi siyasət üçün mühüm əhəmiyyət kəsb edən kəsişən tərəflərini ortaya çıxarır.

*Tədqiqatın orjinallığı və elmi yeniliyi:* gizli sektorun iqtisadiyyatdakı rolu ilə bağlı mövcud nəzəri və empirik mənbələr araşdırılaraq, zəruri ümumiləşdirmələr aparılmışdır.

**Açar sözlər:** *gizli (qeyri-rəsmi) iqtisadiyyat, gizli sektor, vergidən yayınma, iqtisadi siyasət.*

* AZ 1000. Bakı ş. İstiqlaliyyət küç. 6,
e.bagirzade@gmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Dünyada gizli iqtisadiyyatla bağlı formalaşdırılan dövlət siyasətlərinin araşdırılması zamanı qarşıya çıxan ilk tendensiya, bu siyasətlərin gizli sektorun ölkə iqtisadiyyatındakı rolu və formalaşma səbəbləri ilə sıx bağlı olmasıdır. Gizli sektorun leqallaşdırılmasına həsr edilmiş tədqiqatların təhlili göstərir ki, bu istiqamətdə cavablandırılması zəruri olan ilk sual, gizli sektorun ölkə iqtisadiyyatındakı rolunun nə olduğu sualıdır. Başqa sözlə, bu sektor leqallaşdırılacağı təqdirdə ölkə iqtisadiyyatı qazanacaqmı, yoxsa itirəcəkmi? Sualın cavabı mühüm dərəcədə bu sektorun ölkə iqtisadiyyatındakı rolunun düzgün qiymətləndirilməsindən asılıdır. Bu baxımdan gizli sektorun iqtisadiyyatdakı rolunu tədqiq edən nəzəri və empirik tədqiqatların araşdırılması böyük əhəmiyyət kəsb edir. Məqalədə gizli iqtisadiyyat anlayışına qısa açıqlama gətirildikdən sonra, bu sahədəki ədəbiyyat mühüm dərəcədə araşdırılacaq və bu araşdırmaların ümumi nəticələri təqdim ediləcəkdir.

## 2. Gizli iqtisadiyyat anlayışı

Gizli iqtisadiyyat anlayışına ortaq yanaşmanın formalaşdırılması ilə bağlı elmi axtarışlar, əsasları 1980-ci illərdə atılmış və BMT-nin 1993 Milli Hesablar Sistemi Konvensiyasının qəbul edilməsindən sonra daha da geniş yayılmış makroiqtisadi yanaşma ilə yeni bir mərhələyə keçmişdir. Bu gün ədəbiyyatda ən geniş yayılmış yanaşma kimi önə çıxan makroiqtisadi yanaşma, gizli iqtisadiyyat anlayışına milli gəlir statistikası, başqa sözlə, ÜDM hesablamaları çərçivəsində tərifin verilməsinə çalışır ki, bu da 2002-ci ildə BMT (*UN*), BVF (*IMF*), BƏT (*ILO*), İƏİT (*OECD*) və MDB STAT (*CIS STAT*) tərəfindən birgə nəşr edilən "Müşahidə edilməyən iqtisadiyyatın ölçülməsi: Bələdçi kitab"ında (*"Mavi Kitab"*) əksini tapan anlayış və yanaşmalara əsaslanır [23, s. 12-13; 27, s.7]. Mövzunun bu aspektinə toxunan Türkiyəli professor Akalın göstərir ki, gizli iqtisadiyyat anlayışı ilə bağlı mövcud yanaşma fərqliliklərinin təməlində, onun makroiqtisadi anlayış olduğunun unudulması dayanır [1, s. 29].

Makroiqtisadi yanaşma, gizli iqtisadiyyat anlayışına BMT-nin 1993 Milli Hesablar Sistemi Konvensiyasına əsaslanaraq, ÜDM göstəricisini əldə etmək məqsədilə uçot registrlərində əks olunmalı olan iqtisadi fəaliyyətlərin faktiki əks olunmayan hissəsi kimi yanaşır [28, s. 3]. Makroiqtisadi yanaşmada bir iqtisadi fəaliyyətin gizli iqtisadiyyat anlayışı çərçivəsinə daxil edilməsi üçün o fəaliyyətin, nəticəsində əlavə dəyərin yaradıldığı məhsuldar fəaliyyət olma, bazar buraxılışı olma və rəsmi statistika tərəfindən uçot registrlərində əks etdirilə bilməmə kimi üç kriteriyaya da cavab verməsi tələb olunur [15, s. 92; 23, s. 25-26; 40, s. 28-29].

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə aldıqda, makroiqtisadi yanaşma əsas götürülməklə, gizli iqtisadiyyat anlayışının konkretləşdirilməsi və onunla bağlı ortaq

tərifin formalaşdırılması cəhdlərinin nəticəsi kimi, bu anlayışa "qanunvericiliyə tamamilə uyğun olmadan (*kriminal sektor*) və ya onun bir sıra tələblərini pozmaqla həyata keçirilən (*qeyri-kriminal sektor*), üzərində dövlət idarəetmə orqanlarının tənzimləmə və nəzarət funksiyalarının reallaşdırıla bilmədiyi, milli gəlir statistikasının mövcud hesablama metodları ilə kəmiyyət qiymətləndirmələrinin aparıla bilmədiyi və buna görə də rəsmi hesablanan ÜDM göstəricisinin əhatə etmədiyi, əlavə dəyər yaradan bazar buraxılışlı iqtisadi fəaliyyətlərin məcmusu" formasında tərif vermək mümkündür.

### 3. Gizli sektorun iqtisadiyyatdakı rolu haqqında fərqli yanaşmalar

Ədəbiyyatda gizli sektorun iqtisadiyyatdakı rolu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bunlar Frey [15, s. 91], Lemieux [21, s. 20-25], Eilat və Zinnes [11, s. 43-46], Bernabe [8, s. 56], Schneider və Enste [27, s. 157-177], Spiro [34, s. 179-193], Bajada və Schneider [7, s. 3-6], Winkler [39, s. 219-220], Oviedo [22, s. 8], Fleming vb. [14, s. 394-395], Wallace vb. [38, s. 8-10], Yılmaz [42, s. 153], Kıldiş [18], Özsoylu [23, s. 7, 45-54], Işık və Acar [16, s. 130-131], İkiz [17, s. 10-13], Aydemir [5, s. 94-127], Aydın [4, s. 25-27], Yetim [41, s. 13-14], Kırbaş [19, s. 20-25], Altuğ [3, s. 480-487], Erdağ [13, s. 91-100], Ülgen və Öztürk [37, s. 4], Us [36, s. 13-15], Bakkal [6, s. 86-107], Şişman [35, s. 102-114], Soylan [32, s. 39-47], Latov [20, s. 46-52] kimi tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Cədvəl 1-də də təqdim olunduğu kimi gizli sektorun təsirlərinə əsaslanaraq, formalaşdırılan və empirik tədqiqatlarla da dəstəklənən bu yanaşmaları iki əsas qrupa ayırmaq mümkündür: pozitiv və neqativ yanaşmalar.

**Cədvəl 1.Gizli sektorun iqtisadiyyatdakı rolu haqqında fərqli yanaşmalar**

| Təsirlər | POZİTİV YANAŞMA | NEQATİV YANAŞMA |
|---|---|---|
| Makroiqtisadi | ✓ İqtisadi artımı stimullaşdırır<br>✓ İşsizliyi azaldır<br>✓ İnflyasiyanı azaldır<br>✓ İqtisadi böhranları "yumşaldır"<br>✓ Əlavə resursları dövriyyəyə cəlb edir<br>✓ Məcmu təklifi artırır<br>✓ Rəsmi sektora əlavə tələb yaradır<br>✓ Rəsmi sektora maliyyə resursu yaradır<br>✓ Səmərəsiz siyasəti neytrallaşdırır<br>✓ Yığımları sürətlə investisiyaya çevirir | ✓ İqtisadi artımı azaldır<br>✓ İnflyasiyanı yüksəldir<br>✓ İqtisadi qeyri-sabitlik yaradır<br>✓ "Dollarlaşma" səviyyəsini yüksəldir<br>✓ Statistik rəqəmləri təhrif etməklə iqtisadi siyasətin effektini azaldır<br>✓ Resursları qeyri-rəsmiliyə əlverişli sektorlara yönəldərək, məcmu iqtisadi səmərəliliyi aşağı alır<br>✓ İxrac potensialını zəiflədir<br>✓ Xaricə kapital qaçışını artırır<br>✓ İqtisadiyyatda daha çox qeyri-rəsmilik doğurur |

| | | |
|---|---|---|
| **Makroiqtisadi** | ✓ Sahibkarın xərclərini aşağı salır<br>✓ Ağır bürokratiyadan yan keçilir<br>✓ Ucuz əmtəə və xidmət təklif edir<br>✓ Fərdlər üçün əlavə gəlir mənbəyidir<br>✓ Daxili bazarda rəqabəti gücləndirir<br>✓ Monopoliyalara "zərbə" vurur<br>✓ Xarici bazarda rəqabət üstünlüyü yaradır<br>✓ "Xalis" bazar münasibətləri təklif edir<br>✓ Daha çevik iş vaxtı təklif edir<br>✓ İşçilərə daha çox müstəqillik verir<br>✓ Daha insani biznes praktikası yaradır<br>✓ İnnovasiya üçün əlavə potensialdır | ✓ Dövlət xidmətlərindən məhrum edir<br>✓ Sağlam maliyyə mənbələrinə çıxışa imkan vermir<br>✓ Haqsız rəqabət yaradır<br>✓ İqtisadi vahidləri kiçiltməklə məhsuldarlığı azaldır<br>✓ Markalaşmanı zəiflədir<br>✓ Reklam imkanlarını ortadan qaldırır<br>✓ "Gizlənmə" xərcləri yaradır<br>✓ İnnovasiya potensialını zəiflədir<br>✓ Qeyri-sağlam əmək şəraiti yaradır<br>✓ İstehlakçı hüquqları qorunmur<br>✓ Həmkarlar ittifaqı sistemini zəiflədir<br>✓ Xarici bazarda rəqabət gücünü zəiflədir |
| **Dövlət maliyyəsi** | ✓ Qeyri-rəsmi sektorda gəlirlərinin mühüm hissəsi rəsmi sektorda xərcləndiyindən dolayı vergilərdən gələn gəlirlər artır | ✓ Dövlət gəlirlərini azaldır<br>✓ Rəsmi sektorda vergi yükünü yüksəldir<br>✓ Dürüst vergi ödəyiciləri " cəzalandırılır"<br>✓ Dövlət xidmətlərini zəiflədir<br>✓ Vergi mədəniyyətini aşındırır<br>✓ "Free-rider" problemi yaradır<br>✓ Vergi qurumlarının gücünü zəiflədir |

Mənbə: Müvafiq ədəbiyyat araşdırması əsasında müəllif tərəfindən tərtib edilmişdir.

## 3.1. Pozitiv yanaşma

Bu yanaşma gizli sektorun pozitiv təsirlərinə əsaslanır. Cədvəl 1-də də təqdim olunduğu kimi gizli sektorun iqtisadi artım, işsizlik, inflyasiya, iqtisadi böhranlar, məcmu tələb və təklifin inkişafı, investisiyaların artırılması kimi makroiqtisadi problemlərin, istehsal xərclərinin azaldılması, inhisarçılığın ortadan qaldırılması, rəqabətin gücləndirilməsi, beynəlxalq rəqabət üstünlüyünün əldə edilməsi, şəxsi gəlirlərin artırılması kimi mikroiqtisadi problemlərin, dolayı vergi gəlirlərinin artırılması kimi dövlət maliyyəsi problemlərinin, sosial "partlayışlar"ın qarşısının alınması, gəlir bərabərsizliyinin "yumşaldılması", korrupsiyanın azaldılması kimi sosial problemlərin həllinə kömək etdiyi iddia edilir. Bu yanaşmanın tərəfdarlarının böyük əksəriyyəti modern gizli iqtisadiyyat nəzəriyyəsi çərçivəsində ortaya çıxan dualist, strukturalist və leqalist məktəblərin təmsilçiləri, eyni zamanda da neoliberal iqtisadçılardır.

Pozitiv yanaşmanın mühüm təmsilçilərindən italiyan ekonomist Martino gizli sektoru *"italiyanların yaradıcılıq imkanlarını nümayiş etdirməsi baxımından və ölkəni iflasdan qurtaran bir italiyan möcüzəsidir"* kimi ifadə etdiyi halda [23, s. 7], Gersi onun Latın Amerikasında meydana gəlməsini totalitar və geri qalmış toplumlarda kapitalist ruhun daşıyıcıları olan qeyri-rəsmi sahibkarların bir inqilabı və Kristofor Kolumbun Amerikanı kəşfindən sonrakı dövrdə ən mühüm hadisə kimi qiymətləndirməklə yanaşı, artıq bu inqilabın sədalarının ABŞ, Avropa və Afrikadan da gəldiyini göstərir [25, s. 6].

J.Skolko düşünür ki, gizli iqtisadiyyat gəlirlərin yenidən bölgüsünü reallaşdırmaqla pozitiv rifah təsiri potensialı daşıyır. A.Portes, M.Castells və L.Benton gizli sektorun iqtisadi konyukturadakı dəyişikliklərə çevik şəkildə uyğunlaşa bildiyini və bu baxımdan iqtisadi inkişaf üçün zəruri olan struktur dəyişikliklərin sürətlənməsinə yardım edə biləcəyini göstərirlər. J.Prager və M.Carter resursların yenidən bölgüsünün mükəmməl olmayan formada planlaşdırıldığı zəif inkişaf etmiş ölkələrdə rəsmi sektorun təmin edə bilmədiyi məhsulların gizli sektor tərəfindən təklif edildiyini iddia edir. P.Harding və R.Jenkins gizli iqtisadiyyatın yalnız rəqabət yaratmadığını, eyni zamanda da əməkhaqqları üzərindəki təzyiqi və inflyasiyanı zəiflətməklə iqtisadi artımı stimullaşdırdığını göstərir [7, s. 6]. F.Schneider isə Bill Gatesin qarajdan başlayan yenilikçi fəaliyyətlərini də misal göstərməklə, gizli iqtisadiyyatın innovativ potensialının olduğunu düşünür [27, s. 164].

1982-ci ildə gizli iqtisadiyyatın vergi gəlirləri üzərində pozitiv təsirinin ola biləcəyini nəzərdə tutan Peacock-Shaw modeli, A.Peacock və G.K.Shaw tərəfindən ortaya atılmışdır. Modelə görə vergidən yayındırılan gəlirin marjinal istehlak meylindən asılı olaraq, nəticədə, əldə olunan vergi gəliri itirilən vergi gəlirini kompensasiya edə bilər. Çünkü vergidən yayınma, şəxslərin sərəncamda qalan gəlirini artırdığından, yüksək marjinal istehlak meyli iqtisadiyyatda gəlirin multiplikativ təsirini də yüksəldəcəkdir ki, nəticədə, də dolayı vergi bazası genişlənəcəkdir. Modelə görə marjinal istehlak meyli 1-ə yaxınlaşdıqca, dolayı vergi gəlirləri yüksələcək və birbaşa vergilərdəki yayınmaları kompensasiya edəcək, hətta ondan daha çox olacaqdır [24; 13, s. 58-59].

Milli gəlir modeli çərçivəsində formalaşdırılan bu tip digər bir yanaşma da məşğulluq vergilərindən yayınmanın milli gəlir üzərində pozitiv təsir yaradacağı ilə bağlıdır. Belə ki, vergidən yayınıldığı halda, əməkhaqları üzərindəki mövcud vergi yükündən asılı olaraq, sərəncamda qalan gəlir səviyyəsi yüksələcək, eyni zamanda, da əməkhaqlarının işəgötürənlər üzərindəki yükü azalacaqdır. Belə bir vəziyyətdə bir tərəfdən xalis əməkhaqqının artması iş qüvvəsi təklifini yüksəldəcək, digər tərəfdən də işəgötürən üçün iş qüvvəsi xərclərinin azalması iş qüvvəsinə tələbi artıracaqdır. Nəticədə, iqtisadi artım sürətlənəcək və dövlətin vergi gəlirləri də artacaqdır[13, s. 59].

Gizli iqtisadiyyatın pozitiv təsiri ilə bağlı yuxarıdakı fikirlər bəzi empirik tədqiqatlar tərəfindən də dəstəklənmişdir. Belə ki, 2004-cü ildə Schneider və Klinglmair tərəfindən aparılan bir empirik tədqiqatın nəticələrinə görə 1990-2000-ci illər arasında gizli sektorun 1% artımının rəsmi iqtisadi artımda İnkişaf Etmiş Ölkələr üçün 7,7% və Keçid Ölkələri üçün 9,9% nisbətində bir artıma səbəb olduğu ortaya çıxmışdır [29, s. 21-29]. 2007-ci ildə Schneider və Hametner tərəfindən Kolumbiya üçün aparılan bir empirik tədqiqatın nəticəsinə görə 1977-2002-ci illər arasında adambaşına ÜDM-dəki orta hesabla 1,11% nisbətində artımın 0,07-0,27%-i gizli sektorun hesabına olmuşdur [30, s. 21]. 1985-ci ildə M.C.Adam və V.Ginsburghun Belçika üçün apardığı bir araşdırmada da gizli sektordakı artımın rəsmi sektorda artıma səbəb olduğu qənaətinə gəlinmişdir [26, s. 88]. F.Schneiderin Almaniya və Avstriyada apardığı tədqiqatlarda gizli sektordan qazanılan gəlirlərin 2/3 hissəsinin rəsmi sektorda xərcləndiyi ortaya çıxmışdır [27, s. 171]. D.K.Bhattacharyyanın 1990-cı illərdə Birləşmiş Krallıqda apardığı araşdırmalar isə 1960-1984-cü illər arasında gizli sektorun rəsmi sektorda əmtəə və xidmətlər, xüsusilə dayanıqlı əmtəələr üçün həyata keçirilən istehlak xərclərini ciddi şəkildə yüksəltdiyini ortaya çıxarmışdır [26, s. 90].

BƏT(ILO)-in 1972-ci ildə Keniya Hesabatını hazırlayanlar gizli sektorun işsizliyi azaltdığını göstərərək, siyasətçilərdən bu sektora ehtiyyatlı yanaşmalarını istəmişlər [3, s. 272]. M.Yüce tərəfindən 2007-ci ildə yayınlanan bir anket araşdırmasının nəticələrinə görə də anketə qoşulanların Rusiyanın Xakasiya Respublikasında 19,5%-i, Qazaxıstanda 18,3%-i, Qırğızıstanda isə 26,3%-i gizli sektorun məşğulluğun mühüm mənbəyi olduğunu bildirmişdir [43, s. 77].

Gizli iqtisadiyyatın pozitiv təsirləri ilə bağlı empirik tədqiqatların ən maraqlı nəticələri isə onun korrupsiyanı azaltması ilə bağlıdır. Belə ki, Dreher və Schneiderin 2006-cı ildə 120 ölkəni və 1994-2002-ci illəri əhatə edən araşdırmalarının nəticələrinə görə İnkişaf Etmiş Ölkələrdə gizli sektor korrupsiyanı əvəzedici rol oynayaraq, onun həcminin azaldılmasına yardım edir [10, s. 15]. Bu araşdırma nəticələrini dəstəkləyən digər bir araşdırma da S. Rose-Ackermann tərəfindən 1997-ci ildə aparılmışdır [26, s. 91]. Bu araşdırmalardan çıxarılan nəticəyə görə İnkişaf Etmiş Ölkələrdə gizli sektor məmurlara əlavə gəlir təmin etdiyi üçün korrupsiyanı əvəzedici funksiya daşıyır və onun səviyyəsini azaldır.

Digər maraqlı bir araşdırma da 2002-ci ildə Choi və Thum tərəfindən həyata keçirilmiş və bu araşdırmanın nəticələrinə görə gizli sektor dövlətin özəl sektora gərəksiz müdaxilələrinin zəiflədilməsinə xidmət etməklə, rəsmi sektorda iqtisadi fəaliyyətlərin inkişafına pozitiv təsir göstərir və bu baxımdan da rəsmi sektorun tamamlayıcısı kimi qəbul edilə bilər [9, s. 22].

Bütün bu nəzəri və empirik tədqiqatların nəticələri bəzən siyasət formalaşdırıcıların gizli sektorla bağlı yanaşmalarına da təsir göstərmişdir ki, bunların da böyük əksəriyyəti siyasətdə sağ liberal qanadı təmsil etmişdir. ABŞ-da Reagan,

İngiltərədə Tetcher, Türkiyədə Özal, Rusiyada Gaydar hökumətləri zamanında bu tipli yanaşmalara tez-tez rast gəlinmişdir.

Reagan 1982-ci ilin aprel ayındakı bir çıxışında belə deyir: “Bu gizli iqtisadiyyatdakı insanlar, əminəm ki, bir çox fəaliyyətlərində dürüst davranırlar, ama vergi ödəmək məsələsi gəldikdə, ikili standartdan çıxış edirlər… Hökumət xərclərini tənzimləmək üçün çabaladıqca, bu ödənməmiş vergilərin büdcə kəsirini örtməyə nə qədər kömək edəcəyini düşünməmək insanın əlində deyil” [3, s. 226]. Özal iqtisadi siyasətində, özünün də ifadə etdiyi kimi “nə edirsiniz, edin, zəngin olun” yanaşmasını əsas götürmüşdür. İtaliyan Baş nazirlərindən biri isə düşüncələrini daha açıq bir şəkildə dilə gətirmişdir: “Dilə gətirmək düzgün deyil, ancaq bu “yayınmalar” ən azı məşğulluğu nəzərdə tutduqda yaxşı işdir. Əgər vergi məmuru gizli sektora müdaxilə edirsə, o ədalətin təmin edilməsi prinsipindən hərəkət edir. Ancaq bu yolla sadəcə kiçik iş sahiblərini və onların çalışanlarını sıradan çıxarmaz, eyni zamanda, ölkə iqtisadiyyatı və sosial sülhü də ortadan qaldıra bilər” [7, s. 6]. Problemin bu aspektinə toxunan F.Schneider göstərir ki, İnkişaf Etmiş Ölkələrdə hökumətlər gizli sektorun azaldılmasına aşağıdakı səbəblərdən dolayı o qədər də həvəs göstərmirlər [31, s. 27]:

- gizli sektorda qazanılan gəlirlərin 2/3 hissəsi rəsmi sektorda xərcləndiyindən dövlətin bu sektor səbəbindən vergi gəlirlərindəki itkilər də böyük həcmlərdə olmaya bilər;
- gizli sektorda qazanılan gəlirlər məşğul əhalinin ən azı 1/3 hissəsinin həyat standartlarının yüksəlməsinə xidmət edir;
- gizli sektorun 40-50%-i rəsmi sektoru tamamlayıcı xarakter daşımaqla, əlavə dəyər yaradaraq rəsmi ÜDM artımını yüksəldir;
- gizli sektorda çalışanların böyük əksəriyyəti bununla ikinci iş kimi məşğul olur ki, nəticədə də onların siyasi nümayişlərə qoşulmağa zamanı qalmır.

Əslində, gizli sektorun pozitiv təsirləri ilə bağlı bütün yuxarıda söylənilənləri bir tərəfə qoyaraq, deyə bilərik ki, makroiqtisadi baxımdan yanaşdıqda iqtisadiyyatda hər hansı bir fenomen məcmu rifahda itkiyə səbəb olmursa, hətta əksinə, onu yüksəldirsə, o fenomenin mövcudluğunun təqdir edilməsi və hətta onun stimullaşdırılması zəruridir. Bu prinsipdən çıxış edərək, gizli sektora yanaşıldıqda isə iki əsas sual ilə qarşı-qarşıya qalınır:

Birincisi, gizli sektor iqtisadiyyatdakı payı etibarilə hansı həddə qədər pozitiv təsirlərini davam etdirə bilər? Digər ifadə ilə, makroiqtisadi baxımdan gizli sektorun optimal həcmi nə qədər olmalıdır?

İkincisi, mikroiqtisadi baxımdan yanaşdıqda gizli sektorun təməl pozitiv təsirlərini doğuran bu sektordakı hansı növ iqtisadi fəaliyyətlərdir?

İlk suala müasir gizli iqtisadiyyat nəzəriyyəsinin verdiyi cavab, gizli sektorun rəsmi ÜDM-nin 10%-ə qədər ola biləcəyi istiqamətindədir [6, s. 86-87]. İkinci suala verilən cavab isə rentabelli olmaları gizliliklərinə bağlı olan qeyri-kriminal gizli sek-

tor fəaliyyətləridir. Başqa sözlə, leqallaşdırılacaqları təqdirdə rentabelli olmayacaq fəaliyyətlərdir ki, bunlara bəzən rəsmi sektorun tamamlayıcısı olan gizli iqtisadi fəaliyyətlər də deyilir. Problemin bu aspektinə toxunan türkiyəli professor Özsoylu göstərir ki, gizli iqtisadiyyatı tamamilə mənfi qiymətləndirmək heç də doğru deyildir və iqtisadi subyektlərin gəlirlərini artırması, aşağı riskə malik olması, tələb və təklifin qiymət elastikliyinin yüksək olması şərtləri çərçivəsində bu sektor rəsmi sektorun tamamlayıcısı ola bilər [23, s. 52-54].

Nəhayət, bütün yuxarıda qeyd edilənlərə baxmayaraq, Bajada və Schneider [7, s. 6], Us [36, s. 15], Kıldiş [18] və Kırbaş [19, s. 26-27] kimi tədqiqatçılara görə gizli sektorun iqtisadiyyatda pozitiv təsirləri olsa da, bunlar qısamüddətlidir və uzunmüddətli dövrdə bu sektorun neqativ təsirləri daha çoxdur.

### 3.2. Neqativ yanaşma

Bu yanaşma digərindən fərqli olaraq gizli iqtisadiyyatın neqativ təsirlərinə əsaslanaraq formalaşmışdır. Cədvəl 1-də də təqdim edildiyi kimi gizli iqtisadiyyatın makroiqtisadi, mikroiqtisadi, dövlət maliyyəsi və sosial baxımdan mühüm neqativ təsirləri olduğu göstərilir. Cədvəl 1-i detallı şəkildə təhlil etdikdə, gizli sektorun neqativ təsirlərinin pozitiv təsirlərindən daha çox, həm də daha əhatəli olduğunu görmək mümkündür. Bu yanaşmanın əsas tərəfdarları daha çox maliyyəçilər olmaqla yanaşı, keynsçi və neokeynsçi iqtisadçılar da bunların sırasındadır [1, s. 27-28]. Bu çərçivədə formalaşdırılmış əsas teoremlər isə W. Arthur Lewisin irəli sürdüyü "modernist teorem" (*ənənəvi sektorların gizli, modern sektorların rəsmi olması*) və E.Feigenin irəli sürdüyü "gizli gəlir hipotezi"dir[1] [17, s. 10-12]. Siyasətdə bu yanaşmanın əsas tərəfdarları isə daha çox sol qanad siyasətçiləridir [3, s. 226].

E.Feige gizli iqtisadiyyatın iqtisadi siyasəti səmərəsizləşdirməsilə bağlı "Makroiqtisadiyyat və gizli iqtisadiyyat" adlı məqaləsində yazır: "Monetarist yanaşma inflyasiyanı izah etməkdə yetərsiz və gücsüz qalmışdır. Belə ki, bu yanaşma inflyasiyanı yalnız və yalnız bazardakı pul həcmi (*pul təklifi*) ilə əlaqəli göstərir. Ancaq gizli sektorun varlığı, pulun bir ödəmə vasitəsi kimi dövriyyə sürətini və formasını mühüm dərəcədə dəyişdirərək, analiz və proqnozları yanıldır. Digər tərəfdən, gizli sektor iqtisadiyyatda məhsuldarlığın müəyyənləşdirilməsini çətinləşdirir. Bu, formalaşan gəlirin bəyan edilməməsindən və istehsal resurslarının rəsmi sektordan gizli sektora axmasından irəli gələ bilər. Nəhayət, bütün bunların bəlkə də ən mühümü iqtisadi araşdırmalar və onların nəticəsinə əsaslanan iqtisad siyasətləri yanıltmasıdır. Çağdaş iqtisadçıların, iqtisadi siyasət qurucularının ən sağlam və etibarlı informasiya mənbəyi və yol göstəricisi olması tələb olunan tədqiqatlar, xüsusilə ekonometrik araşdırmalar müşahidə edilməyən, ölçülə bilməyən iqtisadiyyatın

[1] Bu hipotez üçün bax: E.Bağırzadə, "Gizli (*qeyri-rəsmi*) iqtisadiyyatın kəmiyyət qiymətləndirməsi:obyektiv zərurilik və metodoloji yetərsizlik" adlı məqaləsi, "Azərbaycanın vergi jurnalı", №.1, 2012, səh. 118.

mövcudluğu ilə əlaqədar olaraq, sağlamlığını və etibarlılığını böyük ölçüdə itirir" [5, s. 114]. 1979-cu ildə ABŞ-da P.Gutmann isə yazır: "Hökumətin inflyasiya ilə mübarizəsi uğursuz olmuşdur. Çünki bu mübarizə böyük bir yanılmaya əsaslanır. Hökumət tam şəkildə yanılmaqla gizli sektorda çalışanları nəzərə almadan işsizlik səviyyəsini yüksək hesab etmişdir. Nəticədə də federal siyasət inflyasiya ilə mübarizədən çəkinmişdir" [3, s. 239].

P.S.Spiro hesab edir ki, gizli iqtisadiyyatın vergidən yayınması yüksək vergi dərəcəsinin nəticəsi olsa da, vergidən yayınmanın çətin olduğu sahələrdə də daha yüksək vergi dərəcəsi doğurur. Ona görə gizli iqtisadiyyatda iştiraka imkan verilməsi vergidən yayınmanın asan olduğu fəaliyyət sahələrinə bir növ dövlətin "subsidiya" yönəltməsi mənasını daşıyır ki, bunlar da əsasən məhsuldarlığın aşağı olduğu sahələrdir [34, s. 179]. U.Bakkala görə də yayındırılan vergi bir qrup mükəlləf tərəfindən bir növ faizsiz kredit kimi istifadə edilir ki, bu da mükəlləflər arasında haqsız rəqabət yaradır [6, s. 95].

Həqiqətən də gizli iqtisadiyyatın ən neqativ təsiri dövlət gəlirləri üzərindədir. Sxem 1-də də ifadə edildiyi kimi gizli sektorun inkişafı ilə dövlətin vergi gəlirləri arasında bir "çıxılmaz hal" ortaya çıxır. Belə ki, gizli sektordan irəli gələrək gəlirləri azalan dövlət, məcburiyyət qarşısında qalaraq rəsmi sektorda vergi yükünü artırma yolunu seçir ki, bu da rəsmi sektorda fəaliyyət göstərənlərin gizli sektora yönəlməsini bir qədər də stimullaşdırır və nəticədə daha geniş bir gizli sektor formalaşdırır.




**Sxem 1: Gizli iqtisadiyyat və vergiqoymada "çıxılmaz hal"**
Mənbə: *M.Ercan [12].*

Gizli sektorun iqtisadi resursların səmərəsiz istifadəsinə yol açdığını qeyd edən J.R.Kesselman göstərir ki, gizli iqtisadiyyat subyektləri əldə etdikləri gəlirləri yığıma və daşınmaz əmlaka çevirməkdən daha çox istehlaka yönəldirlər, çünki bu zaman vergi orqanlarının diqqətindən yayına bilmələri nisbətən asan olur [7, s. 5]. F.Palda da qeyd edir ki, gizli sektor miqyas iqtisadiyyatı problemi və digər qeyri-səmərəlilik-

lər doğurur [34, s. 180]. Problemə daha ətraflı yanaşan türkiyəli tədqiqatçı M.Ercan isə Sxem 2-dən də göründüyü kimi gizli sektorun iqtisadiyyatda məhsuldarlıq baxımından iki əsas effekti - "əqrəb" effekti və "bulaşı" effekti - olduğunu göstərir [12]. "Əqrəb" effektinə görə gizli sektora yönələn firmanın resurslara, xüsusilə sağlam maliyyə resurslarına çıxışı məhdudlaşır və qeyri-məhsuldar firma ortaya çıxır. Lakin bu firma dövlət qarşısındakı öhdəliklərindən yayındığından müəyyən rəqabət üstünlüyü əldə edir və fəaliyyətini davam etdirmək üçün daha çox gizliliyə yönəlir. "Bulaşıcı" effekt isə gizli sektorun rəsmi sektora da bulaşmasını ifadə edir. Belə ki, gizli sektora yönələn firmalar rəsmi sektordakı məhsuldar firmalar qarşısında haqsız rəqabət üstünlüyü qazanır və bu da rəsmi sektor firmalarının ya rentabelliyinin azalması, kiçilməsi və nəticədə sektordan çıxması ilə nəticələnir, ya da onların da gizli sektora yönəlməsinə səbəb olur.

İqtisadçılar gizli iqtisadiyyatın sosial-siyasi sahədəki ciddi neqativ təsirləri üzərində də dayanır. Bu baxımdan 1994-cü ildə G.Priest yazır: "Gizli iqtisadiyyatın genişlənməsi anarxiya yaradır və bu iqtisadi inkişaf prosesinin sürətləndirilməsinə xidmət etməli olan siyasi, hüquqi və iqtisadi institutların stabilliyini və məsuliyyətliliyini ortadan qaldırır" [7, s. 3]. H.De Soto isə məsələyə daha sərt yanaşır: "Səlahiyyətindən ancaq əhalinin 40%-i üzərində istifadə edə bilən bir hökumət, sosial və siyasi sabitliyi necə təmin edə bilər? Demək ki, 3-cü dünya ölkələrində hərbi çevirilişlərin bu qədər çox olması təsadüfü deyildir" [3, s. 285].

Gizli iqtisadiyyatın ən maraqlı cəhətlərindən biri özü-özünün həm səbəbi, həm də nəticəsi ola bilməsidir. Məsələnin bu aspektinə toxunan türkiyəli tədqiqatçı B.Soylan qeyd edir ki, gizli iqtisadiyyatın multiplikativ effekti vardır. Belə ki, istehsal mərhələsində hər hansı bir gizlilik varsa, bu son istehlakçıya qədər təkrar istehsalın hər həlqəsində ən azı özü qədər gizlilik doğuracaqdır [32, s.: 22-23; 33, s. 39-42].

Gizli sektorun bu neqativ təsirlərilə bağlı qeyd olunan nəzəri fikirlər bir sıra empirik tədqiqatlar tərəfindən də dəstəklənmişdir. Belə ki, 2004-cü ildə F.Schneider və R.Klinglmair tərəfindən aparılan empirik tədqiqata əsasən inkişaf etməkdə olan ölkələrdə 1990-2000-ci illər arasında gizli iqtisadi sektorun hər 1% artımı rəsmi iqtisadi artımda 4,5-5,7%-lik bir azalmaya səbəb olmuşdur [24, s. 21-29]. 1996-cı ildə isə V.Loayza Latın Amerika ölkələri üçün apardığı tədqiqatda 1980-1992-ci illər arasında gizli sektorun hər 1%-lik artımının adambaşına real rəsmi ÜDM artımında 1,22%-lik bir azalmaya səbəb olduğunu ortaya çıxarmış və bunu da gizli sektorun rəsmi sektorda ictimai xidmətləri zəiflətməsi və mövcud ictimai xidmətlərin səmərəsizliyi ilə əlaqələndirmişdir [27, s. 160].

1987-ci ildə J.Houston nəzəri biznes tsikli modeli çərçivəsində vergi və monetar siyasətlə gizli iqtisadiyyat arasındakı əlaqəni tədqiq etmiş və belə nəticəyə gəlmişdir ki, gizli iqtisadiyyatın mövcudluğu fiskal və ya monetar stimulun inflyasiyatörədici effektlərini yüksəldir [26, s. 88].




**Sxem 2: Gizli iqtisadiyyat və qeyri-məhsuldarlıq spiralı**

Mənbə: *M. Ercan [12].*

1998-ci ildə Almaniya Əmək və Sosial Həmrəylik Federal Nazirliyi hesablamışdır ki, ölkədə hər 10000 gizli işə 160 milyon və ya hər gizli işə 16000 avrodan çox vergi itkisi (sosial müdafiə ayırmaları ilə birlikdə) düşür. F.Schneiderə görə bu gizli sektorla müxtəlif səviyyələrdə əlaqəli olan 5 milyon əhali üçün təxminən 80 milyard avro deməkdir [27, s. 175]. Kanada üçün aparılan hesablamalarda bu ölkənin gizli iqtisadiyyat nəticəsində orta hesabla ildə 6 milyard dollar itirdiyi üzə çıxmışdır. Yeni Zellandiya üçün də eyni ssenari ilə aparılan hesablamalara görə bu itki məcmu vergi gəlirlərinin 6,4-10,2%-i təşkil etmişdir [7, s. 3].

Türkiyəli tədqiqatçı M.Yücenin 2006-cı ildə yayınladığı anket tədqiqatının nəticələrinə görə respondentlərin Qazaxıstanda 8,7%-i, Qırğızıstanda 17,6%-i, Rusiyanın Xakasiya Respublikasında isə 31,4%-i gizli iqtisadiyyatı ölkədə rəqabəti pozan amil kimi qəbul etmişdir [43, s. 72-73].

Gizli iqtisadiyyatın korrupsiyatörədici effektini təsdiqləyən empirik tədqiqatlar da mövcuddur. Belə ki, 2001-ci ildə S.Akçay 23 post-komunist ölkəsi üzrə apardığı ekonometrik tədqiqatın nəticəsinə görə korrupsiyanın iki əsas səbəbindən birinin (*digəri iqtisadi azadlıq*) gizli iqtisadiyyat olduğu ortaya çıxmışdır. Tədqiqata görə bu ölkələrdə gizli iqtisadiyyat səviyyəsində hər 1% artım korrupsiya indeksində 0,02

bənd artıma səbəb olmuşdur[2, s. 232]. 2002-ci ildə J.R.Choi və M.Thum apardıqları bir tədqiqatda belə qənaətə gəlmişlər ki, bazar subyektlərinin gizli sektora yönəlməsi dövlət rəsmilərinin də korrupsiyaya yönəlməsini gücləndirir [9, s. 22]. 2006-cı ildə A.Dreher və F.Schneiderin 1994-2002-ci illər arası 120 ölkə üzrə apardığı tədqiqatın nəticəsinə görə də aşağı gəlirli ölkələrdə gizli iqtisadiyyat korrupsiya səviyyəsini yüksəldir və bu baxımdan onun tamamlayıcısı rolunu oynayır [10, s.15].

## 4. Nəticə

Araşdırmalar göstərir ki, ədəbiyyatda gizli sektorun iqtisadiyyatdakı rolu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Gizli iqtisadiyyatın təsirlərinə əsaslanaraq formalaşan və empirik tədqiqatlar tərəfindən də dəstəklənən bu yanaşmaları pozitiv və neqativ olmaqla iki əsas qrupa ayırmaq mümkündür.

Pozitiv yanaşma tərəfdarlarının böyük əksəriyyəti müasir gizli iqtisadiyyat nəzəriyyəsi çərçivəsində ortaya çıxan dualist, strukturalist və leqalist məktəblərin təmsilçiləri, eyni zamanda da neoliberal iqtisadçılardır. Həmçinin, müxtəlif dövrlərdə dünyanın müxtəlif ölkələrində sağ liberal qanadı təmsil edən bir çox siyasətçinin də pozitiv yanaşmanın təsiri altında olduğu ortaya çıxmışdır.

Neqativ yanaşmanın əsas tərəfdarları isə daha çox maliyyəçilər olmaqla yanaşı, keynsçi və neokeynsçi iqtisadçılar da bunların sırasındadır. Siyasətdə bu yanaşmanın tərəfdarları isə daha çox sol qanad siyasətçiləridir.

Ancaq araşdırmalar göstərir ki, gizli sektorun iqtisadiyyatdakı pozitiv təsirlərinin əsasən qısamüddətli olması və uzunmüddətli perspektivdə neqativ təsirlərinin daha çox olması ilə bağlı artıq ədəbiyyatda müəyyən fikir birliyi formalaşmışdır.

## Ədəbiyyat siyahısı:

1. Akalın G.(1996). Kayıt dışı ekonomi sorunu ve yasa tasarısı (I) / Vergi dünyası, sayı 178, haziran, s. 27-38.
2. Akçay S. (2001).Geçiş ekonomileri ve yolsuzluk. Afyon Kocatepe Üniversitesi İİBF dergisi, Cilt 11, Sayı 2 (Ocak), s. 219-233.
3. Altuğ O. (1999). Kayıtdışı ekonomi. İstanbul: Türkmen kitabevi .
4. Aydın B. M. (2006). Türkiye'deki kayt dışı ekonomide vergi denetiminin önemi . Vergi denetmenleri derneği yayını, İstanbul.
5. Aydemir Ş. (1995). Türkiye'de kayıtdışı ekonomi. İstanbul: Maliye hesap uzmanları derneği.
6. Bakkal U. (2007). Kayıt dışı ekonomi. İstanbul: Derin yayınları.
7. Bajada Ch., Schneider F. (2005). An introduction. Size, Causes and consequences of the underground economy, Aldershot: Ashgate, , pp. 1-11.

8. Bernabè S. (2002). Informal employment in countries in transition: A conceptual framework. Centre for analysis of social exclusion London school of economics, CASE paper 56, London, April.
9. Choi J.P., Thum M. (2002). Corruption and the shadow economy. Center for economic studies & Ifo institute for economic iesearch (CESifo), Working paper No. 633 (2), Munich, January.
10. Dreher A., Schneider F. (2006). Corruption and the shadow economy: An empirical analysis. Swiss institute for business cycle research, Working paper No. 123, January.
11. Eilat Y., Zinnes C. (2000). The evolution of the shadow economy in transition countries: Consequences for economic growth and donor assistance. Harvard institute for international development, CAER II discussion paper No. 83, September.
12. Ercan M. (2006). Kayıtdışı Ekonomi ve hızlı tüketim malları sektörü. Nurol matbaacılık: Ankara.
13. Erdağ N. (2007). Kayıt dışı: kara para, Yolsuzluk. İstanbul: Cinius.
14. Fleming M.H., Roman J., Farrell G. (2000), The shadow economy. Journal of international affairs, Spring, 53, No. 2, pp.387-409.
15.Frey B.S. (1994). Gölge ekonomi ve iktisat politikası. çev. A. Kibritçioğlu. Ekonomik yaklaşım dergisi, Cilt: 5, No. 13, s. 91-108.
16. Işık N., Acar M. (2003) Kayıtdışı ekonomi: ölçme yöntemleri, boyutları, yarar ve zararları üzerine bir değerlendirme. Erciyes Üniversitesi iktisadi ve idari bilimler fakültesi dergisi, Temmuz-Aralık, No.21, s. 117-136.
17. İkiz A.S. (2000.) Kayıtdışı Ekonomi ve Türkiye'de ekonomik büyüme üzerine etkileri. Basılmamış doktora tezi, T.C Dokuz Eylül Üniversitesi sosyal bilimler enstitüsü iktisat anabilim dalı, İzmir.
18.Kıldiş Y. (2000) Kayıt Dışı ekonominin ulusal-uluslar arası boyutu ve çözüm önerileri. Dokuz eylül üniversitesi sosyal bilimler enstitüsü dergisi, http://www.sbe.deu.edu.tr/Yayinlar/ dergi/dergi05/kildis.htm, Cilt 2, No.2, ss.1-10.
19. Kırbaş S.(1995). Kayıtdışı ekonomi: nedenleri, boyutları ve çözüm yolları. TESAV yayın No: 9.
20. Latov Y.B., Kovalev S.N. (2006). Tenevaya ekonomika. Moskva: Norma.
21. Lemieux P. (2007) The underground economy: causes, extent, approaches. Montreal economic institute research paper, Canada, Montreal, November.
22. Oviedo A.M., Thomas M.R., (2009). Karakurum-Özdemir K. Economic informality: causes, costs, and policies - a literature survey. World bank working paper No. 167, Washington D.C.
23. Özsoylu A.F. (1996). Türkiye'de kayıt dışı ekonomi. İstanbul: Bağlam yayınları.
24. Peacock A., Shaw G.K. (1982) Tax evsion and tax revenue loss. Public finance, Vol. 37, pp. 269-278.
25. Purkis S. (2006) Çevre ve yarı çevre ülkelerde ekonomide enformalleşme ve marjinalleşme süreçleri. İktisat dergisi Kasım-Aralık, ss. 5-18.
26. Schneider F., Enste D.H. (2000) Shadow economies: size, causes, and consequences. Journal of economic literature, March,Vol.XXXVIII, pp.77-114.
27. Schneider F., Enste D.H. (2002).The shadow economy: an international survey. Cambridge: Cambridge University press.

28. Schneider F., Bajada Ch. (2003) The size and development of the shadow economies in the Asia-Pacific. Johannes Kepler University Linz, Department of economics, Working paper No. 0301, April.
29. Schneider F., Klinglmair R. (2004) Shadow economies around the world: what do we know? IZA Discussion paper No.1043, March.
30. Schneider F., Hametner B. (2007). The shadow economy in Colombia: size and effects on economic growth. http://www.econ.jku.at/Schneider.
31. Schneider F. (2007). Reducing the shadow economy in Germany: a blessing or a curse? July 10.
32. Soylan B. (2008). Kayıtdışı. İstanbul: Altan basım, Mart.
33. Soylan B. (2008). Vergiyi anlamak. İstanbul: Altan basım, Şubat
34. Spiro S. P. (2005). Tax policy and the underground economy. size, causes and consequences of the underground economy, Aldershot: Ashgate, pp.179-201.
35. Şişman Y. (1999). Ekonomik faaliyetlerde enformelleşme ve Türkiye’de enformel ekonomik faaliyetlerde çalışanlara yönelik sosyal politikalar: Eskişehir’deki seyyar satıcılar üzerine bir alan çalışması. Anadolu Üniversitesi yayınları No. 1165, Eskişehir.
36. Us V. (2004). Kayıtdışı ekonomi tahmini yöntem önerisi: Türkiye örneği. Tartışma metni 2004/17, Türkiye ekonomi kurumu, Haziran.
37. Ülgen S., Öztürk U. (2007). Kayıtdışı ekonomi: Türkiye serüveni. İstanbul: Deloitte CEO serisi
38. Wallace C., Haerpfer Ch., Latcheva R. (1998) The informal economy in East-Central Europe 1991-1998. Vienna, Institute for advanced studies, Sociological series No. 64, June.
39. Winkler R. (1997). The size and some effects of the underground economy in Mexico. The Underground economy: Global evidence of its size and impact, The Fraser institute, Vancouver, pp. 217-221.
40. Witte A.D. (2008). The nature and extent of unrecorded activity: a survey consentrating on recent US research / The economics of the hidden economy, Volume I, Edward Elgar publishing, pp. 28-48.
41. Yetim S. (1999). Türkiye’de vergi kaçakçılığı ve kayıt dışı ekonomi. Türkiye bankalar birliği yayın No: 215, İstanbul,
42. Yılmaz G.A. (2006). Kayıtdışı ekonomi ve çözüm yolları. İstanbul: İstanbul serbest muhasebeci mali müşavirler odası,
43. Yüce M. (2007). Eski Sovyet birliği ülkelerinde mükelleflerin vergiye bakışı üzerine bir çalışma. Akademik araştırmalar dergisi 2006-2007, Sayı 31, s. 65-81.

**Багирзаде Эльшан Расул оглы**
диссертант, Азербайджанский Государственный Экономический Университет

## Роль теневого (неофициального) сектора в экономике: литературный анализ

### Аннотация

*Цель исследования:* проведение анализа и необходимых обобщений, имеющихся в литературе мнений о роли теневого сектора в экономике.

*Методология исследования:* анализ, синтез, дедукция, индукция, системный подход и методы группирования.

*Результаты исследования:* согласно результатам анализа в научной литературе роли теневого сектора экономики наряду с положительными и отрицательными тенденциями выявлено наличие и двух новых форм подходов. В то же время результаты анализа показали, что в литературе уже сформировалось определенное единогласное мнение с более негативным подходом относительно роли теневого сектора экономики в долгосрочной перспективе.

*Ограничения исследования:* отсутствие исследований в данном секторе экономики Азербайджана.

*Практическая значимость исследования:* выявлены пересекающиеся стороны различных подходов в литературе относительно роли теневого сектора экономики, представляющие особую важность для экономической политики.

*Оригинальность и научная новизна исследования:* были проведены необходимые обобщения на основе анализа известных теоретических и эмпирических источников относительно роли теневого сектора экономики.

**Ключевые слова:** *теневая экономика (неофициальная), теневой сектор, уклонение от налогов, экономическая политика*

**Bagirzadeh Elshan Rasul oglu**
Phd-student Azerbaijan State Economic University

## Hidden (unofficial) sector's role in the economy: a literature survey

## Abstract

*Purpose:* Literature review of current ideas about the role of the hidden sector in the economy and carry out necessary generalizations.

*Methodology:* Analysis, synthesis, deduction, induction, a systematic approach and classification methods have been used.

*Findings:* According to the results of the research, the literature has two basic approaches - negative and positive - on the role of the hidden sector in the economy. At the same time, the results of the research showed that, a certain consensus on more consistent of negative approach towards long-term role of hidden sector in the economy has already emerged in the literature.

*Limitations:* It is connected with limited researches for Azerbaijan economy in this area.

*Practical implications:* It has revealed cross-cutting issues of different approaches on the role of the hidden sector in the economy in the literature , which are important for economic policy.

*Originality:* It has got necessary generalizes connected with the role of hidden sector in the economy based on researching of existing theoretical and practical sources.

**Key words:** *hidden (unofficial) economy, hidden sector, tax evasion, economic policy.*

**JEL Codes:** O17, E26, H26, E6

Məqalə redaksiyaya daxil olmuşdur: 04.09.12.
Eəkrar işləməyə göndərilmişdir: 12.09.12.
Çapa qəbul olunmuşdur: 25.10.12.